Ümumi təhsil müəssisələrində şagirdlərin vətənpərvərlik tərbiyəsi üzrə aparılan işlərin daha intensiv mahiyyət daşımasına, bu sahədə həyata keçirilən tədbirlərin davamlı xarakter almasına, şagirdlərdə fəal vətəndaş mövqeyi və doğma torpağa sədaqət hissi formalaşdırılmasının pedaqoji kollektivlər tərəfindən prioritet vəzifə olaraq qəbul edilməsinə etibarlı zəmin yaratmaq məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. 2013-2014-cü tədris ilindən başlayaraq ümumi təhsil müəssisələrinin V-XI siniflərində ilk dərs “Mənim Vətənim – doğma yurdum” mövzusuna həsr olunsun.

2. Naxçıvan MR Təhsil Nazirliyi, Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Gəncə Şəhər Təhsil İdarəsi, rayon (şəhər) təhsil şöbələri, Nazirlik tabeliyindəki ümumi təhsil müəssisələrinin direktorları:

2.1. Həmin mövzuda keçirilən dərslərdə Ulu öndər Heydər Əliyevin Vətən və xalq qarşısında müstəsna xidmətlərinin izahına, Azərbaycanın dövlət rəmzləri haqqında şagirdlərin biliklərinin möhkəmləndirilməsinə, onlarda respublikamızın, eləcə də yaşadıqları ərazinin flora və faunası, tarixi və mədəni abidələri, görkəmli şəxsiyyətləri, ölkəmizin dünya birliyində mövqeyi, son dövrlərdə qazandığı nailiyyətlər, Vətən uğrunda şəhid olmuş qəhrəmanlar barədə məlumatların artırılmasına xüsusi diqqət yetirilməsini təmin etsinlər.

2.2. 2013-2014-cü tədris ilində ümumtəhsil məktəblərində keçiriləcək “Bilik günü”ndə, habelə ilk dərslərdə məktəbin sabiq məzunlarının, ictimaiyyətin nümayəndələrinin, əmək və müharibə veteranlarının iştirak etmələri üçün təşkilati tədbirlər görsünlər.

3. İnformasiya şöbəsi (E.Əliyev) əmrin “Azərbaycan müəllimi” qəzetində dərc olunmasını təmin etsin.

4. Əmrin icrasına nəzarət nazir müavini Ceyhun Bayramova həvalə olunsun.

***Mikayıl CABBAROV,***<br>
***Azərbaycan Respublikasının***

***təhsil naziri***<br>
***13 sentyabr 2013-cü il***

***№808***